# 1960-90-cı illərin mətbuatında demokratik meyillər

## Haqq və gözəllik özü də bir basqıdır



Qərənfil Dünyaminqızı
Əməkdar jurnalist

**20-ci yüzilliyin 70 ildən artıq dövrü sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf etsə də, bu dövrün də xüsusi yeri var. Bu da faktdır ki, sovet gerçəkliyində yaşadığımız yetmiş ildə milli düşüncənin yaranmasında, yaşanmasında və təbliğində ədəbiyyatımızla yanaşı, mətbuatımızın da böyük rolu olub. Xüsusən də son 30 il (1960-1990-cı illər) bu mənada birmənalı təsdiq olunsa da, əvvəlki 40 ilin də üstündən keçmək düz olmaz.**

"Mətbuat əsasən sovet təbliğat maşınının "təkərciyinə və vintciyinə" çevrilsə də, bu heç də o demək deyil ki, sovet dönəmində Azərbaycan jurnalistikası heç nə qazanmayıb və heç nəyə nail olmayıb. Məsələn, mətbuatın kütləviliyi, onun dilinin, üslubunun daha da təkmilləşməsi, peşə sənətkarlığının artırılması və s. Lakin kəmiyyət göstəriciləri etibarı ilə müəyyən uğurlar əldə olunsa da, jurnalistikanın funksiyaları, prinsipləri, dəyərləri baxımından geriləmələr də olub. Bu da ondan irəli gəlirdi ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı idi.

Amma "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana", "Bakı", "Baku" kimi tanınmış mətbuat orqanlarında kommunist ideologiyası ilə bağlı məsələlərlə yanaşı, respublikanın iqtisadi, elmi, mədəni inkişafının problemləri də öz əksini tapırdı. Xalqın həyatının işıqlandırılmasında, ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində qismən də olsa müxalif fikrə də yer verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rolu olmuşdur.

Bu qəzetlərin xalqımızın dil, ədəbiyyat və mədəniyyətinə həsr etdiyi, azərbaycançılıq ideyasına xidmət edən yazıları (onlar çox az olsa da, var) bu gün də aktual olaraq qalır və totalitar rejim şəraitində belə Azərbaycan jurnalistikasının mövqeyini nümayiş etdirib. Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, nisbətən öz milli varlığını qoruyub saxlamağa çalışmış, əldə etdiyi zəngin ənənələri davam etdirərək respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Az da olsa milliliyi, xəlqiliyi qoruyub saxlamağa çağırış var idi. Məsələn, Səməd Vurğun "Biz və tarixi keçmişimiz" adlı məqaləsində yazırdı: "Tarixin uzaqlarına getdiyimiz zamanda belə, yenə öz əsrimizin övladı olduğumuzu unutmamalıyıq".

Məhz bu dövrdə mətbuatımızın coğrafiyası və ifadə vasitələri genişlənərək respublikanın ictimai-siyasi həyatının demək olar ki, bütün sahələrini əhatə etmişdir. 1970-80-ci illərdə Azərbaycan tənqidində ideya-estetik təhlil bütövlüyünə meyl güclü olmuş, müasir bədii fikrin hərəkət və ritmində duyulan ən yeni keyfiyyətləri izləmək, təhlil və qiymətləndirmək əsas yer tutmuşdur.

Doğrudur, 1960-70-ci illərdə sosializm xeyli dərəcədə zəifləsə də, mövcudluğunu qoruyub saxlayırdı. Ölkənin siyasi olimpində və milli respublikalarda gedən proseslər ona müəyyən zərbə vursa da, hələ onu qoruyub saxlayan siyasi sistem qalırdı.

1972-ci ildə Sov.İKP Mərkəzi Komitəsinin "İctimai elmləri inkişaf etdirmək, onun kommunizm quruculuğundakı rolunu artırmaq tədbirləri haqqında" qərarı humanitar elmlərin həm inkişafına, həm də tədqiqinə təkan verdi. 1960-cı illərin sonu 70-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan mətbuat tarixinin tədqiqi yeni mərhələyə qədəm qoydu. Həmin dövrün tədqiqi həm ayrı-ayrı yazarların həyat və yaradıcılığının öyrənilməsinə, həm də ədəbi mühitin problemli məsələlərinin tədqiqinə həsr edilib. Amma hələ də milli həyatla inqilabi düşüncə arasında təzad problemi, iki zidd siyasi ideologiyanın müsavat və



bolşevizmin-birincinin əksinqilabçı, soyğunçu, ikincinin isə əksinə, sosial rifah və "milli azadlıq" vəd edən quruluş kimi təbliğ edən əsərlər yazılmaqda idi. Əfsus ki, bu hal akademik səciyyəli tədqiqatlarda, habelə bir çox kollektiv monoqrafiyalarda, dərsliklərdə, dərs vəsaitlərində davam edirdi.

Məsələn, 1973-cü ildə ölkənin görkəmli akademiklərindən İ.A.Hüseynovun, M.A.Dadaşzadənin, Z.İ.İbrahimovun, P.Ə.Əzizbəyovanın, Ə.N.Quliyevin və Ə.S. Sumbatzadənin redaktəsi altında hazırlanan "Azərbaycan tarixi" (üç cilddə, birinci cild. Elm nəşriyyatı. Bakı, 1973) dərsliyində 1917-ci ilin mart ayından 1937-ci ilin sonlarına kimi olan dövr əhatə edilir. Dərslikdə mətbuat haqqında "Kütləvi-mədəni iş və mədəni-maarif işi Mətbuat" adlı bölümdə (cəmi 1-2 səhifədə), qısa şəkildə məlumat verilib. "1922-ci ildə Azərbaycan mətbuatı kəmiyyət və keyfiyyət baxımından Zaqafqaziyada birinci yeri tuturdu" söyləyən akademiklərimiz, birinci yerdə daha çox rus və erməndilli mətbuatın fəaliyyətini xüsusi vurğulayıblar: "Azərbaycan zəhmətkeşlərinin kommunist tərbiyəsində, onların siyasi şüurunu və əmək fəallığını yüksəltməkdə respublika qəzetləri, xüsusən AK (b) P Mərkəzi və Bakı komitəsinin orqanı olan "Bakinskiy Raboçiy" və "Kommunist" (erməni dilində) qəzetləri böyük rol oynayırdılar". Çox təəssüf ki, bu fikir Azərbaycanda 1920-40-cı illərdə necə yanlış təbliğ edilirdisə, 1970-80-ci illərdə də bəzi tədqiqatlarda davam edirdi.

Sovet dövrü tədqiqatlarında yalnız "burjua mətbuatı" adı ilə qamçılanan "Kaspi" qəzetinin tədqiqinə nisbətən obyektiv olaraq, ilk dəfə 1970-ci illərdən başlanmışdır. Bu sahədə ilk addım atanlardan biri də tədqiqatçı alim Səmayə Mövlayevadır. S.Mövlayevanın "Rus və Azərbaycan mədəniyyətinin "Kaspi" qəzetində təbliği" adlı istisnalıq təşkil edən monoqrafiyasında "Kaspi"nin nəşri, redaktorları, əsas müəllifləri, məramı, Azərbaycan və rus mədəniyyətinin təbliğində oynadığı mühüm rol, mətbuat tariximizdəki mövqeyi qismən ətraflı, obyektiv şəkildə tədqiq olunmuş, dəyərli mülahizələr söylənilmişdir".

S.Mövlayevadan əvvəl də qəzetin tarixi, fəaliyyəti, ictimai rolu, əhəmiyyəti haqqında K.Talıbzadə, Ə.Mirəhmədov, N.Axundov, Ş.Qurbanov, S.Lukyanova və başqa tədqiqatçılar fikirlərini, mülahizələrini bildirmişlər. Lakin sovet dövründə aparılmış həmin tədqiqatlarda "Kaspi" qəzetinin fəaliyyəti, mətbuat tariximizdəki yeri xalqımızın milli mənafeyi baxımından deyil, sinfi, siyasi və ideoloji mübarizə mövqeyindən qiymətləndirilmişdir. Azərbaycanda böyük bir jurnalist, publisist ordusunun yetişməsində mühüm rolu olan, məhz bu xüsusiyyətlərinə görə "Müsəlman "Kaspi"si ləqəbini qazanan "Kaspi" qəzeti sovet tədqiqatlarında birmənalı olaraq tənqid obyektinə çevrilmişdir. "İctimai əhəmiyyət kəsb edən hər hansı fakta bu cür yanaşma nöqsandır. Optimal variant bu cür fakt və hadisələrə imkan daxilində obyektiv qiymət vermək üçün tarixi şəraiti, dövrün mənzərəsini aydın təsəvvür etmək və onlara bu prizmadan yanaşmaq lazımdır".

1970-ci illərin əvvəllərinə nisbətən 1980-ci illərin əvvəllərində Mərkəzdə ictimai-siyasi mühitdə olduğu kimi, ədəbi-mədəni mühitdə də müəyyən dəyişikliklər baş verirdi. Azərbaycanda isə bu proses 1980-ci ilin ikinci yarısında özünü qismən əks etdirsə də, hələ də cəmiyyətdə hakim partiyaya qarşı "sədaqət" (əslində qorxu) hissi hökm sürürdü.

"Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci cildində məşhur xeyriyyəçi, Azərbaycan mədəniyyətinin, mətbuatının, maarifinin inkişafında ölçüyəgəlməz dərəcədə xidmətləri olan Hacı Zeynalabdin Tağıyev haqqında cəmi bir cümlənin yazılmasına görə kitabın bütün tirajı "həbs edildi". Bu haqda görkəmli tədqiqatçı alim Əziz Mirəhmədov yazırdı: "Respublika baş mətbuat idarəsinin rəisi MK-nin birinci katibinə yazılı məlumat vermişdi ki, mən Azərbaycan mədəniyyəti tarixini təhrif etmişəm. Nəticədə kitabın bütün tirajını "həbs etdilər" və "zərərli vərəqi" cırıb götürdülər".

Yuxarıda qeyd etdiyimiz kimi, artıq 1980-ci illərin sonları Azərbaycanda ideoloji sahənin bütün cəbhələrində olduğu kimi, mətbuatda da yeniliklə köhnənin mübarizəsi, yaxud köhnənin yeniyə müqaviməti getdikcə amansız şəkil alırdı. Yeni yaranan milli ruhlu mətbu orqanları Azərbaycanın azadlıq mücadiləsində yaxından iştirak edərək, onun yaxın tarixini öz səhifələrində yazdılar. Onlar bu səpkili mövzulara tez-tez müraciət edərək fərdin və millətin ən böyük sərvəti olan azadlığı, istiqlalı uğrunda mücadilə aparan tarixi şəxsiyyətlərin mətbu irsinə, yaradıcılığına yeni həyat, nəfəs verir, bununla da müstəqillik uğrunda mübarizə aparan hərəkat iştirakçılarını mənəvi-ideoloji, siyasi baxımdan qidalandırırdılar.

Cəmiyyətdə mövqeyi və mənafeyi, mövcud olan rejimə qarşı yönəlmiş siyasi qüvvələrin formalaşması və inkişafı Azərbaycanda milli-azadlıq hərəkatının daha fəal hərəkat müstəvisinə keçməsinə təkan verdi. 1988-ci ilin noyabrından başlayan meydan hərəkatı təkcə Qarabağ və müstəqillik uğrunda ümumxalq mübarizəsinin başlanğıcı olmadı, eyni zamanda Azərbaycanda müstəqil mətbuatın yaranmasına səbəb oldu.

Tariximizin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasında, azadlıq arzularımızın gerçəkləşməsində, ictimai fikrin, milli şüurun formalaşmasında, milli ideologiyanın təşəkkülündə bu yeni ruhlu mətbuatımız şərəflə mübarizə apararaq istəyinə nail oldu. Odur ki, Azərbaycan mətbuat tarixi tədqiqatçıları bu mətbu orqanların hər birini tədqiqata cəlb etməli, onların əldə etdiyi müsbət nəticənin elmi əhəmiyyətini açıqlamalıdırlar . Çünki həmin illərdə mətbuatımız, sadəcə yeni tarixi mərhələyə daxil olmur, həm də yeni ruhlu mətbuat nümunələrini yaradaraq müstəqilliyimizin yeni tarixini yaradırdılar.